*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 81-90* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.1.81*

## JANR, STRUKTUR, FORMA

# Əruzda təfilə, bölüm və qafiyə münasibətlərinə dair

**Məmməd Əliyev**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Fonetik xüsusiyyətlərinə əsaslanan ərəb dilində Bəsrə qrammatika məktəbinin görkəmli nümayəndələrindən biri olan Xəlil ibn Əhməd (8-ci əsr), təfilə üzərində qurulan əruz ölçü sistemini və qafiyə nəzəriyyəsini inkişaf etdirmişdir. Bu sistem şeirdə ritm və harmoniya yaradır. Təfilənin bəhri (şeirin vəzn vahidi) daxilində müxtəlif konfiqurasiyalarda simmetrik və assimmetrik quruluşu, şeirin tam harmoniyasını təmin edir. Beləliklə, Xəlil ibn Əhməd təfilənin poeziyada əsas ritmik vasitə kimi qəbul etmişdir.
Bundan əlavə, Xəlil ibn Əhməd, ərəb-fars poeziyasında minilliklər boyu istifadə edilən, qrafik prinsipə əsaslanan və 9 hərfdən ibarət olan qafiyə nəzəriyyəsini də inkişaf etdirmişdir. Qafiyənin poeziyada oynadığı rolu müzakirə edərkən qeyd etmək lazımdır ki, o, şeirin ritmik gözəlliyində əsas rol oynayır, onun ritmik strukturunu tamamlayır, ölçülərini müəyyən edir, misraları vahid bir bütöv kimi birləşdirir və həm intonasiya, həm də məna baxımından töhfə verir.
Əruz nəzəriyyəsinə əsaslanaraq, Azərbaycan əruz sistemi müəyyən edilmiş və klassik poeziyada istifadə olunmuşdur. Azərbaycan klassik ədəbiyyatında 47 təfilə və təxminən 270 kombinasiyanın istifadə edildiyi şeirlərdə 74 stereotip nümunədən istifadə olunur.
**Açar sözlər:** əruz vəzni, Xəlil ibn Əhməd, təfilə, qrafik prinsip, ritm, ritmik quruluş

**Məqalə tarixçəsi:** göndərilib – 01.05.2024; qəbul edilib – 16.05.2024

# About the tafil, divisibility, and the rhythmical connection in aruz

**Mammad Aliyev**
Doctor of Philological Sciences, Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** Based on the phonetic nature of the Arabic language, one of the prominent figures of the Basra grammatical school, Khalil ibn Ahmed (8th century), developed the aruz metric system (based on taf'il) and the doctrine of rhyme, which, with its active role in poetry, creates rhythm and harmony in verse. The symmetry and asymmetry of the taf'il in various configurations within the line structures of bahr help establish the complete harmony of the verse. Thus, Khalil ibn Ahmed adopted taf'il as the primary rhythmic device in poetry.

In addition, Khalil ibn Ahmed developed a theory of rhyme consisting of 9 letters based on a graphic principle that has served Arabic-Persian poetry for thousands of years.
When discussing the role of rhyme in poetry, it is important to note that it plays a major role in the rhythmic beauty of the verse, completes the rhythmic structure, determines its metrics, connects the lines as a unified whole, and contributes to both intonation and semantic meaning.
Based on the aruz theory, the Azerbaijani aruz system was defined and used in classical poetry. In Azerbaijani classical literature, 47 taf'ils and about 270 combinations are used in verse, utilizing 74 stereotyped patterns.
**Keywords:** metrics in aruz, Khalil ibn Ahmed, tefil, graphical principle, rhythm, rhythmical order

**Article history:** received – 01.05.2024; accepted − 16.05.2024

## Giriş / *Introduction*

Fonetik xüsusiyyətlərinə əsaslanan ərəb dilində Bəsrə qrammatika məktəbinin görkəmli nümayəndələrindən biri olan Xəlil ibn Əhməd (8-ci əsr), təfilə üzərində qurulan əruz ölçü sistemini və qafiyə nəzəriyyəsini inkişaf etdirmişdir. Bu sistem şeirdə ritm və harmoniya yaradır. Təfilənin bəhri (şeirin vəzn vahidi) daxilində müxtəlif konfiqurasiyalarda simmetrik və assimmetrik quruluşu, şeirin tam harmoniyasını təmin edir. Beləliklə, Xəlil ibn Əhməd təfilənin poeziyada əsas ritmik vasitə kimi qəbul etmişdir.

## Əsas hissə / *Main part*

Təfilənin qəlib daxilində ritmyaratma imkanları əruz vəzninin yaranışından ritmlə bağlı qəbul edilmişdir. "Ərəb dilini fonetka və ritm baxımından tədqiq edən Xəlil ibn Əhməd ...ərəb dilində ritmyaratma vasitəsi olduğunu anladır" [5, s.24-25].

"Bir dəfə Xəlil ibn Əhməd Bəsrə küçələrinin birində gəzərkən misgər çəkiclərinin səsini eşidib diqqət yetirmiş, çəkicin zindana dəyərək çıxardığı ritmik səslər onu düşündürmüş və bu, onun əruz sisteminin tərkibində əsas götürülmüşdür; dadaq daq, dadaq daq – fə'Ulün fə'Ulün (mütəqarib bəhri), daq dadaq, daq dadaq – fA'ilün fA'ilün (mütədarik bəhri)" [2, s.39-40].

"...Ərəb şeir vəzninin mənşəyi məsələsində, başqa fərziyyələrlə yanaşı, dəvənin ahəngli yerişi fərziyyəsi də müəyyən dərəcədə həqiqətə müvafiq sayılmalıdır" [2, s.39].

Bu vəznin Azərbaycan şeirində işlənən bütün qəliblərinin müxtəlif quruluşunu nəzərə almaqla təfilələrin qəliblərdə müxtəlif ritmyaratma imkanlarını dörd qrupa bölmək olar:

1. Eyni təfilənin qəliblərdə yaratdığı monoton ritm
2. İki və ya üç həmcins və bir fərqli təfilələrin birləşməsindən yaranan bərqli ritm;
3. İki müxtəlif təfilənin qəlib daxilində birlikdə bərabər zaman fasiləsindən sonra təkrarı ilə yaratdığı ritm (dördbölümlü qəlib növlərində müşahidə olunur).
4. Müxtəlif təfilələrin qəlib növlərində iştirakı ilə yaranan xüsusi ritm variantı;

**I qrup:** Həmcins təfilələrin müəyyən qəliblərdə yaratdığı monoton ritm.

Qəliblərdə həmcins təfilələrin birləşmə variantlarına nəzər salsaq, onlar iki, üç və dörd hissədən ibarət olur. Bu kimi həmcins təfilələrdə ritmi müşahidə etmək üçün iki eyni təfiləli qəlibdən başlamaq lazımdır.

Həmcins təfiləli qəliblər ona görə ön plana çəkilir ki, bu, təfilələrin qəlibdə ritmik axarını, gedişini müşahidə etmək əruz vəznində ritmi müşahidə etmək və öyrənmək üçün ilkin vasitələrdən hesab etmək lazımdır.

Həmcins təfiləli qəliblərdə ritmi müəyyənləşdirmək və onu qəlibdə dəyişməz (sabit) səslənmədə caxlamaq, həmcins təfilələrin bir-birindən asılı olmayaraq müstəqim icra mexanizmi

monoton ritm üçün vacibdir. Ritmin düzgün müəyyənləşməsi və icrası qəlibin düzgün səslənməsi və onun reallaşdığı misranın da düzgün və rəvan, eyni ahənglə bədii oxunmasına şərait yaradır.

Əvvəl iki, sonra üç və daha sonra dörd həmcins təfiləli qəliblərdə ritmi müşahidə etməklə aşağıdakı həmcins təfilə sıralanmasını təqdim edirik.

1. Həzəc bəhri üzrə

1. İkibölümlü həmcins təfiləli qəlib növü:

məfA'İlün məfA'İlün
Bahar olsun bahar olsun - M.M.Seyidzadə

2.Dördbölümlü həmcins təfiləli qəlib növü:

məfA'İlün məfA'İlün məfA'İlün məfA'İlün
Əcəb zülfü əcəb sünbül əcəb xalü əcəb filfül

Fazil Şeyda.

Xəyalım həm dəmim fikrim hədisim şeri divanım

Kişvəri.

3. İkibölümlü (qısa həcəzli) həmcins təfiləli qəlib:

məfA'İlün məfA'İlün
Gülür günəş gülür çəmən – Ə.Cəmil.

4. Dördbölümlü (qısa həcəzli) həmcins təfiləli qəlib:

məfA'ilün məfA'ilün məfA'ilün məfA'ilün
Bəzəklənir düzəklənir bağın fəza sı rənglənir.

A.Səhhət

II. Rəməl bəhri üzrə

1. İkibölümlü həmcins təfiləli qəlib növü:

fA'ilAtün fA'ilAtün
Dil sənindir can sənindi – Qövsi Təbrizi

III. Mütədarik bəhri üzrə:

1. Üçbölümlü mütədarüklü həmcins təfiləli qəlib:

fə'ilün fə'ilün fə'ilün
Canısın canısın canısın. - Q.Bürhanəddin

2. Dördbölümlü həmcins təfiləli qəlib:

fə'lün fə'lün fə'lün fə'lün
Rədd ol sun bəy rədd ol sun xan.

Ü.Hacıbəyov

IV. Rəcəz bəhri üzrə:

1. İkibölümlü həmcins təfiləli qəlib növü:

müstəf'ilün müstəf'ilün
Dillən sazım dillən sazım – B.Zəmani

2.Dördbölümlü rəcəzli həmcins qəlib:

müstəf'ilün müstəf'ilün müstəf'ilün müstəf'ilün
Bir sərçədir açmaz qanad eşqin fəza sında rəqib.

M.M.Seyidzadə.

3. Dördbölümlü (qısa rəcəzli) həmcins qəlib:

müftə'ilün müftə'ilün müftə'ilün müftə'ilün
Hiç günüz ol maz gecəsiz hiç fərəh ol maz qəmisiz

Nəsimi.

V. Mütəqarib bəhri üzrə:
fə'Ulun fə'Ulün fə'Ulün fə'Ulün
Alar qan tökər qan xuraman xuraman.
H.Cavid.

VI. Səri bəhri üzrə:
İkibölümlü həmcins təfiləli qəlib:
müftə'ilün müftə'ilün
Dərdə düçar oynayiram..
Ə.Nəzmi

VII. Kamil bəhri üzrə
1.İkibölümlü həmcins təfiləli qəlib:
mütəfA'ilün mütəfA'ilün
Məni axiri bu qəm öldürür.

2. Dördbölümlü həmcins təfiləli qəlib:
mütəfA'ilün mütəfA'ilün mütəfA'ilün mütəfA'ilün
Bu nə zülmüdür bu nə cövrüdür bu nə zəxmidir bu nə yarədir.
Ə. Yusif.

Beləliklə, tam həmcins təfiləli qəlibləri səsləndirərək, hər bir təfiləyə sərf olunan vaxta düzgün əməl etməklə bu qəlibin tələb olunan, daha doğrusu, qəlibin mövcud olan ritmini ödəmək deməkdir.

Ritmi qəlibdə əsaslandırmaq üçün əruz qəliblərində elə növlər var ki, onlar tam həmcins təfilələrə çox yaxındır. Yalnız bir təfilə ilə fərqlənir.

**II qrup**: İki və ya üç həmcins və bir fərqli təfilənin birləşməsindən alınan ritm.
1.Həcəz bəhri üzrə
1. İki həmcins və bir fərqli təfiləli qəlib.
məfA'İlün məfA'İlün fa'Ulün
Mənim dərdim dəvasızdır dəvasız - Kişvəri
2. İki müxtəlif təfilə daxilində yerləşən həmcins təfiləli qəlib.
məf'Ulü məfA'İlü məfA'İlü fa'Ulün
Əlqissə bir iş işlə mədi əqlə müvafiq.
Rəhməti.
2. Rəməl bəhri üzrə
1. İki həmcins və bir fərqli təfiləli qəlib.
fA'ilAtün fA'ilAtün fA'ilün
Ey yüzü gül ləbləri mər canımız – Nəsimi
2. Üç həmcinsli və bir fərqli təfiləli qəlib.
fA'ilAtün fA'ilAtün fA'ilAtün fA'ilün
Hər nə gördüm əyri gördüm özgə halət görmədim – M.P.Vaqif
3. Mütədarik bəhri üzrə
1. Dördbölümlü olub həmcins fA'ilün-lü və iki fərqli həmcins fə'Ul-lu qəlib.
fA'ilün fA'ilün fə'ul fə'ul
Eyləmək eyləmək mühal mühal – Şükuhi.
2. Üç həmcins və bir fərqli təfiləli qəlib.
fA'ilün fA'ilün fA'ilün fə'
Hər zaman ah edib ağlayır san – R.Şaki

4. Mütəraqib bəhri üzrə
Üç həmcins və bir fərqli mütəqarib növlü qəlib
fə'Ulün fə'Ulün fə'Ulün fə'ül.

Qəliblərin həmcins təfilələr üzrə qruplaşmasında əsas məqsəd qəlibdə tələb olunan ritmi təmin etməkdir. "həmcins" sözünü biz şərti olaraq işlədirik. Bu, eyni təfilənin bərabər zaman fasiləsindən sonra təkrarıdır.

Əruz qəliblərində bərabər zaman fasiləsindən təkrarlanıb ritm yaradan müxtəlif təfiləli birləşmələr eyni ilə təkrarlanaraq qəlibdə xoş bir ritm yaradır. Birləşməni parçalamaq olmaz, onların ikisi də (mötərizəyə alınanlar) birlikdə oxunur, eyni ilə təkrarlanır. Bu proses dördbölümlü qəlib növlərində müşahidə olunur.

**III.qrup:** İki müxtəlif təfilənin birlikdə zaman fasiləsindən sonra təkrarı ilə yaratdığı ritm.

1. Həcəz bəhri üzrə
1. (məfA'İlün fə'Ulün) (məfA'İlün fə'Ulün)
(Tənimdən canım ayrı) (olur isərəvadır) – Q.Bürhanəddin
2. (məf'Ulü məfA'İlün) (məf'Ulü məfA'İlün)
(Həyy oldu iki aləm) (reyhanü gülabından) – İ.Nəsimi
2. Rəməl bəhri üzrə
(fə'ilAtü fA'ilAtün) (fə'ilAtü fA'ilAtün)
(Sevinir gülür ürəkdən) (oları görəndə insan) –Ə. Nəbati.
3. Mütədarik bəhri üzrə
(fA'ilün fə'il) (fA'ilün fə'il)
(Vazehin deyim) (doğru söyləyim) – Ə.Nəbati.
4.Rəcəz bəhri üzrə
İki müxtəlif təfiləli birləşmənin eyni ilə təkrarı
(müftə'ilün məfA'ilün) (müftə'ilün məfA'ilün)
(Gözlərinin oxuna mən) (şəha, nişanə düşmüşəm) – Q.Bürhanəddin

İki müxtəlif təfilənin birləşməsindən əmələ gələn qəliblərin ritmindən açıq-aydın görünür ki, bu, dördbölümlü qəliblərin yarısı qədərdir. Ona görə də bu ritmli qəlib növləri də III qrupa daxil edilir.

Həzəcdə: məfA'İlün fə'Ulün – V növ.
Həzəcdə: (məfA'İlün fə'Ulün) (məfA'İlün fə'Ulün) – IV növ.

Aydın olur ki, həzəcin V növü, IV növün birinci və ya ikinci mötərizədəki təfilələrin birlikdə yaratdığı ritmin çəkisi qədərdir.

Eyni ilə bunu digər vəzn bəhrlərində də görmək olar.
Rəməldə: fə'ilAtün fə'ilün -X növ
rəməldə: (fə'ilAtün fə'ilAtün) (fə'ilAtün fə'ilün) – VI növ
mütədarikdə: fA'ilün fə'il – IV növ.
mütədarikdə: (fA'ilün fə'il) (fA'ilün fə'il) (fA'ilün fə'il) – VI növ.
rəcəzdə: müftə'ilün məfA'ilün -IV növ.
rəcəzdə: (müftə'ilün məfA'ilün) (müftə'ilün məfA'ilün) – III növ
müzaridə: məf'Ulü fA'ilAtün – V növ.
müzaridə: (məf'Ulü fA'ilAtün) (məf'Ulü fA'ilAtün) – III növ.

**IV qrup:** Üç və ya dörd müxtəlif təfilənin qəlib növlərində birləşərək yaratdığı xüsusi (əvvəlki qruplardan fərqli olaraq) ritm.

Elə qəlib növləri var ki, onların ritmi tamamilə əvvəlki qruplardakından fərqlənir. Bu tipli xüsusi ritmli qəlib növləri müxtəlif təfilələrin birləşməsindən əmələ gəlib: məs.: Həzəcin XI növü: məf'Ulü məfA'ilün fə'Ulün (Leyli-Məcnun həzəci), həzəcin XII növü: məf'Ulü məfA'ilü fə'Ulün

(Hüseyn Cavid həzəci;), xəfif bəhrinin hər iki növü: 1 növ: fA'ilAtün məfA'ilün fə'ilün; 2. fA'ilAtün məfA'ilün fə'ilAtün; müzarenin birinci növü: məf'Ulü fA'ilAtü məfA'ilü fA'ilün; IV qrupa daxil olan qəlib növlərinin sayı azlıq təşkil edir və bu növlərin ritmi mürəkkəbdir.

Buraya qədər qəlib növlərinin müxtəlif quruluşunu nəzərə alaraq, xüsusən həmcins təfilələrin qəlib növlərində ritmyaratma mexanizminin təxmini quruluşunun müxtəlif növlərini (4 qrup əsasında) təqdim etdik.

Bu ritmdən başqa, həmcins təfilələrdə və həmcins qəlibi təşkil edən təfilələr arasında ritm intervallarını müşahidə edirik ki, bunlar qəlib növünün əsas ritminə müəyyən qədər xidmət göstərə bilərlər. Bu ritm intervalları ikidir:

1.Təfilənin özündə ritm intervalının təyin edilməsi;

2.Qəlibi təşkil edən bir təfilədən digər təfiləyə keçid zamanı (həmçinin bir bölümdən digər bölümə) ritm intervalının təyin edilməsi;

Birincidə ritm intervalının təyin edilməsi təfilənin düzgün elmi transkripsiyasında nəzərə alınmışdır. Bu təfilədə tətbiq edilən apostrof işarəsi müəyyən ritmik çalar yaradır.

Xüsusi ilə həmcins təfiləli qəliblərdə (əruz qəlib növlərinin əksəriyyətində 1, II, III qruplarda) bu ritmi yaradan göstərici (apostrof işarəsi) müəyyən zaman fasiləsindən sonra təkrarlanaraq ümumi ritmə müəyyən qədər əlavə ritm ötürür.

məfA'İlün məfA'İlün
fə'ilAtün fə'ilAtün
və ya (məf'Ulü məfA'İlün) (məf'Ulü məfA'İlün)

məfA'İlündə məfA'-ilə -İlün, fə'ilə-ilAtün, məf'-A-Ulü arasında işlənən apostrof işarəsinin tətbiqi təfilə daxilində müəyyan əlavə ritm interval ani yaranır. Bu ritm interval iki imoradan artıq olmamalıdır. (İmora bir sairə sərf olunan vaxtdır).

Qəlibi təşkil edən təfilələr arasında ritm intervalının nəzərə alınması ümumi qəlib ritminin formalaşmasına (ritmin tamlığına) müəyyən xidmət göstərir. Qəlibdəki təfilələr arasında ritm interval necə yaranır? Bu sual belə cavablanır: "…söylənərkən bölümlər arasında ayrılıqlar, duraqcıqlar duyulmamalıdır. Duyulsa da, onlar eyni sırada dalbadal axan dalğalar kimi bir-birinə bitişik olmalıdır" [1, s.129].

Hər bir qəlibdə birləşmiş təfilələrin yaratdığı misra ölçüsü istər-istəməz ayrı-ayrılıqda təfilələrin ümumi ahənginə əsaslanır və onlar qəlibdəki ritmin dayaq nöqtələri, enerji mənbələri hesab edilir.

Qəlibdə təfilələr müəyyən ritmik intervalda yerləşsə də, qəlib bu təfilələrin (istər həmcins və ya müxtəlif təfiləli olsun) birləşməsindən yaranış tapır, ölçülə bilir, ritmik misra ölçüsünü təmin edənə qədər əhatə etdiyi maksimal ödəmədir, təminetmədir.

Həmcins təfilələr sıralanması şəklində olan qəlib növləri ritmin yaranmasında müstəsna rol oynayır və bu tip qəliblər hər bir bölümdə eyni ritmin tərtibini və təşkilini səfərbər edir.

Həmcins təfilələrin qəlib strukturunda yerləşməsini nəzərə alsaq, bu təfilələrin arasında ritm intervallarının eyni normada və tərtibdə saxlanılmasına da ciddi əməl etmək vacibdir.

Azərbaycanda əruz vəzni həm nəzəri və həm də praktikləşəbilən təfiləyə, qəlibə, misraya əsaslanır. Bu, onun ən mükəmməl, real və estetik dəyəridir.

Alınan poetik-ritmik dəyər misrada vəzn ölçüsinə çevrilənə qədər müəyyən ritmyaratma prosesi keçirir və yuxarıda, göründüyü kimi, bu proses bir neçə ardıcıl pilləli mərhələdə hasil olur.

Qəliblərin tərkib hissələrinin misrada düzgün reallaşmasında onların hansının əsas və ya qeyri-əsas olmasını müəyyənləşdirmək lazım gəlmir. Yəqin etmək olar ki, bu təfilələr birgə fəaliyyətində misranın ritmik varlığını təmin edir.

Ritm bu vəznin poetikasında hər bir təfilənin, hər bir qəlibin, hər bir bəhrin (ayrı-ayrılıqda təfilənin bölümdə, qəlibin misrada, qəlibin bəhrlər üzrə qruplaşmasında) özlərinəməxsus funksiyasını başa çatdırır və tamamlayır.

Qəlibin poetexnik quruluşu və onun misranı müşayiət prosesində insanı heyrətə gətirən ritmi (xüsusilə həmcins təfiləli qəliblərdə) müxtəlif mərhələli əməliyyatdan sonra alınır.

Ritmik ərsəyə gəlməsi ilə yəqin etmək olar ki, təfilələr aparıcı fəaliyyətdə qəlibin dinamikliyinin, misrada işlək mexanizminin, ahəng zənginliyinin daşıyıcısıdır.

Ritm ilk mərhələdə təfilələrin birləşmələri şəklində fəaliyyət göstərsə də, elmi-əməli cəhətdən nəzərə alınanda o, son işgüzar prosesdə şeirin poetik orqanizmini təmin edir.

Beləliklə, əruz vəznində təfilənin ritmyaratma imkanlarını yekunlaşdırsaq, belə bir nəticəyə gəlmək olar ki, ritm müstəqil işlənən, başqa bir qəliblə əvəzlənməyən, istər həmcins və ya müxtəlif quruluşlu təfilələrin birləşməsindən əmələ gələn eyni qəlibli qəzəldəki misralar əsasında zəruri bərabər zaman fasiləsindən sonra təkrarıdır.

Deməli, əruz vəznində ritm özünün ikimərhələli yaranışını tələb edir: a) ritm əruz vəznində yazılmış şeirin misralarında reallaşan eyni qəlibin əsasında yaranır; b) bu eyni qəlibin bərabər zaman fasiləsindən sonra misralara uyğun təkrarının zəruriliyidir.

Əruz vəznli şeirdə (xüsusən qəzəldə) ritm misra qəlibinin əsasında yaranır. Bu qəlib aid olduğu qəzəlin bütün misraları üçün təkrarlanır. Bu təkrar bərabər zaman çərçivəsində icra olunur.

Beytin birinci misrası:

Mənim dərdim dəvasızdır dəvasız

Kişvəri.

Birinci misranın qəlibi:

MəfA'İlün məfA'İlün fə'Ulün

Bu qəlib vasitəsilə ritmin yaranmasının ilk mərhələsi üzə çıxır, yəni misranın ilk ölçüsü təyin edilir və bu hələ ritmin tamlığını təmin etmir, ritmi tam təsdiqləmir.

Prosesi davam etdirək.

Mənim yarım vəfasızdır vəfasız

MəfA'İlün məfA'İlün fə'Ulün

İki eyni quruluşlu qəlib dəyişilməz qalır.

Birinci misrada olan qəlib kimi, bərabər zaman fasiləsindən sonra təkrarlanır. Ritmin yaranmasında qəlib-misra əsasdır. Misra ölçü vahidi olduğu kimi, qəlib də ritmin təyin edilməsində başlıca rol oynayır. Təfilələr ayrı-ayrılıqda misranın ölçü vahidi olmadığı kimi, həm də misranın bütövlükdə ritmini təyin edə bilməz. Burada qəlibi təşkil edən təfilələrin həmcins və ya müxtəlif quruluşlu olması nəzərə alınmır.

Bahar olsun, bahar olsun

MəfA'İlün məfA'İlün

Çəmənlər laləzar olsun

MəfA'İlün məfA'İlün

və başqa bir qəlibli misra

məf'Ulü fA'İlAtü məfA'ilü fA'İlAtü

Sürətdə gərçi bənzi şi çoxdur Nə siminin

məf'Ulü fA'ilAtü məfA'İlü fA'ilün

Məni də adı hər hə cərin kimi yadıgil

Təfilələrin ritmyaratma imkanlarını qruplaşdırarkən aydın olur ki, misranın ritmi onun yazıldığı ölçüsünün – qəlibin ritmidir. Bərabər zaman fasiləsindən sonra təkrarlanan ritm eyniölçülü ritmdir, qəlibli ritmdir.

Bu eynilik, misranın ölçüsü olan qəlibin eyniliyidir və eyni qəlibin bərabər zaman fasiləsindən sonra eyni təkrarı olmaqla əruz vəznində yazılmış şeirin sonuna qədər misra-qəlib mexanizminin birgə işlək davamıdır.

270-dən çox misra qəlibinin ölçüsünü, şübhəsiz, ritmlə təyin etmək olur. Ritm şeirin ölçüsünü özündə ehtiva edir. Yoxsa bu mürəkkəbliyin içindən şeirin ölçüsünü təyin etmək olmaz. 270-dən çox misra qəlibinin heç birinin ritm cəhətdən üst-üstə düşəni yoxdur.

Ayrılıqda qəbul edilmiş qəzəl yalnız bir ölçüdə bir ritmdədir. Məs. həzəc bəhri 15 növlüdürsə, demək 15 ritmlidir, 47 variantlıdırsa, 47 ritmlidir. Rəməl bəhri 13 növlüdürsə 13 ritmlidir, 75 variantlıdırsa, 75 variant ritmdədir. Müqtəzəb birnövlüdürsə, demək birritmlidir.

Qəzəldə ilk beytin qurulması ritmin ilk beytdə qüvvəyə minməsidir. Bu ritm qəzəlin sonrakı beytləri üçün əsas tutulur.

Ritmlə şeirin ölçüsü və ya şeirin ölçüsü eyni ritmlə qarşılıqlı şəkildə bir-biri ilə bağlıdır. Misrada reallaşan qəlib müəyyən və sabit ritm daşıyıcısıdır.

Qəzəl, əsasən əruz ölçüləri üzərində köklənib. Ritmə gəldikdə eyni təfiləli (həmcins) qəliblər elə beytin birinci misrasında ritm yaradır. Müxtəlit təfiləli qəlibli növləri isə beytin ikinci misrasındakı fəaliyyətə başlayaraq musiqili ritmə çevrilir. Nəticə olaraq demək lazım gəlir ki, əruz vəzni özü başdan-başa heç nədən asılı olmayaraq ritmli və musiqili ölçüdür.

Əruzda isə müxtəlif tipli təfilələrdən qurulan vəznlərdə təkrar olunan şeir ritm vahidi olan təfilələr deyil onların bir neçəsinin birləşib təşkil etdiyi misra qəlibləridir.

Qəzəldə ritmin yaranması və təyin edilməsi iki cür özünü göstərir:

a) Eyni mənalı həmcins təfilələrin bərabər zaman fasiləsindən sonra təkrarının yaratdığı ritm, bu ritmin yaranmasında əsas göstərici təfilələrdir, yəni təfilə həm bölüm, həm də ritm vahidi kimi çıxış edir.
b) Müxtəlif təfiləli birləşmələrdə bərabər zaman fasiləsindən sonra təkrarın yaratdığı ritm isə (qəzəldə ritm vahidi təfilə deyil) qəlibdir.

Əruz vəzni ritmik şeir ölçüsüdür və hər bir misra qəlibinin əsrarəngiz ritmi var. Odur ki, əruz ölçülərində iki ritm növü üzə çıxır. Bunlardan biri bərabər zaman fasiləsindən sonra təkrarlanan həmcins təfilələrdir, digəri isə bərabər zaman fasiləsindən sonra müəyyən simmetriya əsasında təkrarlanan ritmik misra qəlibləridir.

Həmcins təfiləli qəlib, müxtəlif təfiləli qəlib.

Qəzəl, əsasən əruz ölçüləri üzərində köklənir. Ritmə gəldikdə eyni təfiləli (həmcins) qəliblər elə beytin birinci misrasında ritmi üzə çıxarır. Müxtəlif təfiləli qəlibli növlər isə beytin ikinci misrasında fəaliyyətə başlayır və musiqili ritmə çevrilir.

**Təfilə-qafiyə münasibətlərinə dair**

Təfilə bölüm münasibətlərindən danışaraq ritmin meydana gəlməsini göstərməklə onun ritm vasitəsi olduğunu sübut etmiş oluruq. Bunlarla yanaşı, biz qafiyənin şeirin ritmik strukturunda mühüm ritm elementi, ritm vasitəsi rolu oynadığını qeyd etmişdik. Yəni qafiyə bəşəri səciyyə daşıyan ritm elementidir, şeirdə onsuz keçinmək mümkün deyildir. Fərqi yoxdur, ya səslərin alliterasiyası şəklində olsun, ya söz təkrarları (morfem), ya da bütöv söz birləşmələri şəklində!.. Bütün hallarda o, ritm vasitəsi və gücləndiricisi şəklində, bunları nəzərə alaraq ilk dəfə olaraq Azərbaycan ədəbiyyatşünaslığında qafiyəyə, onun tarixi təkamülünə-poetikasına daha geniş müstəvidə yanaşaraq, onu ayrıca mövzu kimi təqdim etməyi zəruri saydıq [4, s.266]. İstər xalq şeirindəki, istərsə də əruz vəznindəki qafiyənin bir funksiyası vardır ki, o da ritmi, üzə çıxarmaq, ritmik sıranı qaydaya salmaq, ahəng və musiqilik cəhətdən misraları bir-birinə bağlamaqdan ibarətdir.

Heca vəznindəki qafiyə misranın kəmiyyət göstəricisidir, ölçüyə girib onun həcminə yekun vurur və şeirin səs gözəlliyinə xidmət edir. Əruzda təfilə, bölüm və qafiyə münasibətlərində qafiyənin “səlahiyyətləri” daha genişdir: o, şeirin ritm gözəlliyi ilə yanaşı, vəzn elementi kimi misrada iştirak edir, vəznə daxil olur misra sonluğunda ritmin davamçısı kimi çıxış edərək vəzni, onun bəhr növlərini, qəlib növlərinə (variantlarına) yekun vurur, müəyyənləşdirir.

Qafiyənin bu funksiyası klassik şeirimizdə sabit və davamlıdır, yüzilliklər boyu iltisaqi quruluşlu türk şeirində özünü göstərmişdir.

Burada haqlı bir sual ortaya çıxır:

Bəsrə qrammatika məktəbinin tanınmış nümayəndəsi Xəlil ibn Əhməd (VIII) əruz və qafiyə haqqında nəzəriyyəsini yaradarkən o, flektiv dillər ailəsinə daxil olan ərəb dilinin fonetik təbiətinə, ahəng və tələffüz xüsusiyyətlərinə, prinsiplərinə əsaslanmışdır. Onun Şərq şeirinə təqdim etdiyi nəzəri müddəaların əsasında təqdim etdiyi qrafik prinsip dayanır.

Bu təlimə əsasən, qafiyədə həlledici amil uzun tələffüz edilən samit səs-rəvi (dayaq) olmuşdur. Rəvi şəkilçidə yerləşmişsə, o, nöqsanlı sayılmışdır. Rəvidən başqa, qafiyənin təşkilində daha səkkiz hərf (səs) iştirak etmişdir. Bunlardan dördü – əlifi-təsis, dəxil, ridf, qəyd rəvidən əvvəl, digər dördü – vəsil, xüruc, məzid, nayirə rəvidən sonra gəlməlidir. Ridfin ərəb-fars şeirində iki növü vardır: müfrəd (əsli) və zaid (mürəkkəb). Əsli ridf (o, y, i, e) səsləri ilə mürəkkəbi isə x, r, s, ş, f, n samitlərindən ibarətdir. Bu hərflərdən başqa, qafiyənin təşkilində altı hərəkədə iştirak etməlidir.

Qafiyələnən samitdən əvvəl gələn qısa saitlər qafiyə üçün o qədər də əhəmiyyət kəsb etmir [, s.266]. Bu isə ərəb-fars tələffüzünün, qüvvətli tələffüz edilən samitlərin zəif fərqlənən qısa saitlərin xüsusiyyəti ilə bağlıdır.

Klassik fars-tacik şeirində bu əlamətlərlə qurulan qafiyənin 30-dan çox növü aşkar edilmişdir [6, s.48]

Əslində, həmin qafiyə növləri qrafik prinsipin tələbləri ilə sait və samit səslərin müxtəlif növ qruplaşmasından, yerdəyişməsindən yaranır, sonralar bunlar türk şeirinə tətbiq olunmuşdur. Türkdilli şeir iltisaqi quruluşlu dillərə aiddir. Onun fonetik təbiəti, ahəng və tələffüz xüsusiyyətləri tamam fərqlidir.

Odur ki, Xəlil ibn Əhmədin yaratdığı təlimin türkdilli şeirə tətbiq olunarkən müəyyən problemlər, bəzi naqislikləri meydana çıxmışdır.

Türkdilli şeirdə qafiyədə ritmi sait səslər, sözlərin tələffüzündə aktiv iştirak edən ahəng qanunu olmuşdur. Belə ki, məhz saitlər ahəngi söz kökündə və şəkilçidə eynicinsli saitin tələffüzünü tələb edir.

Klassik şeirdə ərəb-fars qafiyə təlimi bu və ya digər şəkildə tətbiq edilmişdir (söhbət anadilli şeirdən gedir). Əruz və qafiyə elmini dərindən mənimsəyən klassik sənətkarlarımız ondan kifayət qədər yararlana bilmişlər. Xalq şeirində isə vəziyyət başqadır.

## Nəticə / *Conclusion*

Hələ XIX əsrin ortalarından başlayaraq türkoloq alimlər xalq (folklor) şeirində qafiyənin mövcudluğunu türk epik şeirindən başlayıb gələn ritmik-sintaktik (psixoloji) paralellərlə izah etmişlər [7, s.84] Onların fikrincə, qafiyə şeirdə fəaliyyət göstərən fonetik, morfoloji və sintaktik təkrarların sayəsində, qeyri-ixtiyari, müstəqil şəkildə üzə çıxmışdır. Daha sonralar bu sahədə araşdırmalar aparmış polyak alimi Tadeuş Kovalski belə bir məntiqi nəticəyə gələcəkdi: “Bununla biz təsdiq etmiş oluruq ki, Ərəbistandan başqa, Orta Asiyada, Türküstanda müstəqil qafiyəli poeziya ocağı olmuşdur” [8, s.146]. Deməli, bədahətən deyilmiş bir bayatıda, gəraylıda və qoşmada “qrafik prinsip” əsasında qafiyə axtarmaq yersizdir.

## Ədəbiyyat / *References*

1. Cəfər, Ə. “Sabir şeirinin vəzni” məqaləsi, “Sabir” (məqalələr məcmuəsi). – Bakı, 1962.
2. Cəfər, Ə. “Əruzun nəzəri əsasları və Azərbaycan əruzu”. – Bakı, 1977.
3. Əliyev, M. Ə.Hüseynli. Əruzu necə öyrətməli. – Bakı: Tural, 2004.
4. Əliyev, M. Ədəbiyyat nəzəriyyəsi. – Bakı: Elm və təhsil, 2012.

5. Quluyev, T. “Əruz və qafiyəşünaslıq tarixi”. – Bakı, 2013.
6. Sirus, B. Kafiya dər nazmi tacik. – Düşənbə, 1955.
7. Журмунский, В.М.. Ритмико-синтаксический паралеллизм как основа древнетюркского эпического стиха. Журн. «Вопросы языкознания», 1964, №4.
8. Ковальский, Т. К вопросу формального изучения поэзии тюркских народов. – Краков, 1922. (Polyak dilində).

## О взаимоотношени тафиле и рифмы в арузе

**Мамед Алиев**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА

**Резюме.** Основываясь на фонетическую природу арабского языка один из видных деятелей Басринской грамматической школы Халил ибн Ахмед (VIII век) на основе графического принципа создал метрику аруз (на основе тефиле - стопа) и учение о рифме, которые при их активном участии в стихе создаются ритм и гармонию в стихе. Т.е. созвучие и гармония тефиле (стопа) со своими симметрическими и асимметрическими чередованиями в разных конфигурациях в строке образуют бахр в стихе, при помощи которого в строке создается полная, завершенная гармония стиха. Поэтому Халил ибн Ахмед принял тефиле как основное ритмическое средство в стихе.

Наряду с этим Халил создал 9-ти буквенную теорию рифмы на основании графического принципа, который служил арабо-персидской поэзии тысячелетиями.

Говоря о роли рифмы в стихе, следует отметить, что она играет основную роль в ритмической красоте стиха, завершает ритмические строки, определяет ее метрику, связывает строки со строкой в целом, по интонации и их семантическими значениями.

На основании теории аруза был определен азербайджанский аруз, который использовался в классической поэзии. В азербайджанской классической литературе использован 47 тефиле, около 270 сочетаний тефиле в стихе с помощью 74 шаблонными вариантами.

**Ключевая слова:** метрика аруз, Халил ибн Ахмед, тефиле, графический припцип, ритмика, ритмический строй, 9-ти буквенная теория рифмы